**UDC:** 327
**LBC:** 66.4(4\8)
**MJ №** 219
10.33864/2617-751X.2024.v7.i3.10-28

# Problems of the Post-War Settlement and the Formation of the Yalta-Potsdam System of International Relations

**Irina Kunina***

**Abstract.** The Yalta and Potsdam conferences of 1945, which laid the foundations of the modern world order, are considered the highest diplomatic achievements of World War II. At these conferences, all issues relating to the new world order were resolved by the will of the Allies, united in the anti-Hitler coalition. During the final stage of the war, the existing plans for the complete destruction of the Third Reich were coordinated, and the foundation for a new world order after the war was established. The main topics of discussion at the conferences included achieving the complete defeat of Nazi Germany, determining the future of Germany, ensuring the payment of reparations for war damages, establishing a common political line concerning the European states liberated from occupation, and creating an international organization for security and cooperation, with the goal of making it a decisive factor in ensuring the stability of the newly emerging system of international relations. However, after the defeat of the common enemy, the existing disagreements between the Allies- who had united in the anti-Hitler coalition to fight against fascism and militarism- intensified and soon led to a split into two large blocs. The newly formed Yalta-Potsdam system developed under the conditions of a bipolar system of international relations.

**Keywords:** War, diplomacy, Yalta, Potsdam, conference, system.

---

* Doctor of Philosophy in Political Science,
Azerbaijan University of Languages; Baku, Azerbaijan
E-mail: kunina.irina@mail.ru
https://orcid.org/0000-0002-6746-5406

**To cite this article:** Kunina, I. [2024]. Problems of the Post-War Settlement and the Formation of the Yalta-Potsdam System of International Relations. *“Metafizika” journal, 7*(3), pp.10-28.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i3.10-28

***Article history:***
*Received: 20.11.2023*
*Accepted: 19.02.2024*

**УДК:** 327
**ББК:** 66.4(4\8)
**MJ №** 219
10.33864/2617-751X.2024.v7.i3.10-28

# Проблемы послевоенного урегулирования и формирования Ялтинско-Потсдамской системы международных отношений

**Ирина Кунина***

**Абстракт.** Ялтинская и Потсдамская конференции 1945 года, заложившие основы современного мироустройства, считаются высшим дипломатическим достижением Второй мировой войны. Все вопросы, касающиеся нового мирового порядка, решались на Ялтинской и Потсдамской конференциях волей союзников, объединившихся в антигитлеровскую коалицию. Здесь на заключительном этапе войны согласовывались существующие планы полного уничтожения Третьего рейха и формировался фундамент нового мирового порядка после окончания войны. Достижение полного разгрома гитлеровской Германии, будущее Германии, выплата компенсации за причиненный ущерб, определение общей политической линии в отношении освободившихся от оккупации европейских государств, создание международной организации безопасности и сотрудничества, превращение ее в решающий фактор в обеспечении стабильности вновь формирующейся системы международных отношений и др. связанные с этим вопросы стали главной темой обсуждения на конференциях. Однако после разгрома общего врага существующие разногласия между союзниками, объединившимися в антигитлеровскую коалицию в борьбе с фашизмом и милитаризмом, усилились и вскоре привели к расколу на два крупных блока. Новообразованная Ялтинско-Потсдамская система развивалась в условиях биполярной системы международных отношений.

**Ключевые слова:** Война, дипломатия, Ялта, Потсдам, конференция, система

---

* Доктор философии по политическим наукам,
Азербайджанский университет языков; Баку, Азербайджан
E-mail: kunina.irina@mail.ru
https://orcid.org/0000-0002-6746-5406

**Цитировать статью:** Кунина, И. [2024]. Проблемы послевоенного урегулирования и формирования Ялтинско-Потсдамской системы международных отношений. *Журнал «Metafizika», 7(3),* с.10-28.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i3.10-28

***История статьи:***
*Статья поступила в редакцию: 20.11.2023*
*Отправлена на доработку: 18.12.2023*
*Принята для печати: 19.02.2024*

**UOT:** 327
**KBT:** 66.4(4\8)
**MJ №** 219
10.33864/2617-751X.2024.v7.i3.10-28

# Müharibədən sonrakı nizamlanma problemləri və beynəlxalq münasibətlərin Yalta-Potsdam sisteminin formalaşması

**İrina Kunina***

**Abstrakt.** Müasir dünya düzəninin əsaslarını formalaşdıran 1945-ci il Yalta və Potsdam konfransları İkinci Dünya Müharibəsi dövrünün ən yüksək diplomatik nailiyyəti hesab olunur. Yeni dünya nizamı ilə bağlı bütün məsələlər antihitler koalisiyasında birləşən müttəfiqlərin iradəsi ilə Yalta və Potsdam konfranslarında öz həllini tapmışdır. Burada müharibənin yekun mərhələsində Üçüncü Reyxin sonadək darmadağın edilməsi ilə bağlı mövcud planlar koordinasiya edilmiş və müharibə başa çatdıqdan sonra yeni dünya nizamının təməli formalaşdırılmışdı. Nasist Almaniyasının tam məğlubiyyətinə nail olmaq, Almaniyanın gələcəyi, dəymiş ziyana görə təzminatın ödənilməsi, işğaldan azad olunmuş Avropa dövlətlərinə münasibətdə ümumi siyasi xəttin müəyyənləşdirməsi, təhlükəsizlik və əməkdaşlıq üzrə beynəlxalq təşkilatın yaradılması, onun yeni formalaşacaq beynəlxalq münasibətlər sisteminin sabitliyinin təmin olunmasında həlledici amilə çevrilməsi və s. ilə bağlı məsələlər konfransların əsas müzakirə mövzusuna çevrilmişdir. Lakin faşizm və militarizmə qarşı mübarizədə antihitler koalisiyasında birləşən müttəfiqlər arasında mövcud fikir ayrılıqları ümumi düşmənin məğlub edilməsindən sonra daha da artmış, qısa zamanda iki böyük bloka parçalanmasına səbəb olmuşdu. Yeni formalaşmış Yalta-Potsdam sistemi beynəlxalq münasibətlərin bipolyar sistemi şəraitində inkişaf edirdi.

**Açar sözlər:** Müharibə, diplomatiya, Yalta, Potsdam, konfrans, sistem

---

* Siyasi elmlər üzrə fəlsəfə doktoru,
Azərbaycan Dillər Universiteti; Bakı, Azərbaycan
E-mail: kunina.irina@mail.ru
https://orcid.org/0000-0002-6746-5406

**Məqaləyə istinad:** Kunina, İ. [2024] Müharibədən sonrakı nizamlanma problemləri və beynəlxalq münasibətlərin Yalta-Potsdam sisteminin formalaşması. *“Metafizika” jurnalı, 7*(3), səh.10-28.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i3.10-28

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 20.11.2023*
*Təkrar işlənməyə göndərilmişdir: 18.12.2023*
*Çapa qəbul edilmişdir: 19.02.2024*

## 1.Giriş

Beynəlxalq münasibətlərin ikiqütblü sisteminə gətirib çıxaran 1945-ci il Yalta-Potsdam sisteminin formalaşmasının elmi araşdırılması XX əsrin ikinci yarısının beynəlxalq münasibətlərinin dərindən və hərtərəfli dərk olunmasında müstəsna əhəmiyyətə malik olub, elmi və siyasi dairələrdə hələ də böyük maraq doğurur. Bugündə öz aktuallığını itirməmiş 1945-ci il Yalta-Potsdam konfransları və beynəlxalq münasibətlərin bipolyar sisteminin formalaşması məsələləri müxtəlif aspektlərdən kifayət qədər araşdırılmış, istər xarici ölkələrin, istərsə də keçmiş SSRİ və ya postsovet ölkələri tədqiqatçıları bu mövzuda yüzlərlə elmi əsərlər yazmışdır.

Bu məqalənin yazılmasında məqsəd beynəlxalq münasibətlərin Yalta-Potsdam sisteminin formalaşmasının səbəblərini ümumi şəkildə aşkar etmək, mahiyyətini açmaq, onun xüsusiyyətlərini təhlil etmək və təkamülünü izləməkdir. Bu məqsədə nail olmaq üçün müharibənin yekun mərhələsinin məzmununu açmaq və sonrakı nizamlanma problemlərini göstərmək, Yalta və Potsdam konfranslarının başlanması üçün ilkin şərtləri, məqsədini müəyyənləşdirmək, üç müttəfiq dövlətin başçılarının qarşıya qoyduğu vəzifələri ətraflı təhlil etmək, bu konfransların rolunu, əhəmiyyətini, nəticələrini və yeni beynəlxalq münasibətlər sisteminin mahiyyətini, inkişafını və xüsusiyyətlərini araşdırmaqdır. Tədqiqatın metodoloji və nəzəri əsaslarını sistemli yanaşma, tarixi təsvir, müqayisəli təhlil metodları təşkil edir.

Məqalədə Yalta-Potsdam sisteminin formalaşması üçün ilkin şərt kimi İkinci Dünya Müharibəsi göstərilməklə, müharibədən sonrakı dünya nizamına dair Yalta, Potsdam konfranslarının əhəmiyyəti və qərarları nəzərdən keçirilir, dünyanın yenidən bölüşdürülməsinin əsası kimi Yalta-Potsdam sistemindən sonrakı dünya nizamı, nüvə amilinin xüsusiyyətləri və ideoloji mübarizə, eləcə də bu sistemdəki problemlərdən bəhs olunur.

## 2.İkinci Dünya Müharibəsi Yalta-Potsdam sisteminin formalaşması üçün ilkin şərt kimi

Müharibənin sonlarına doğru bütün Avropanı nəzarətə almış ABŞ, Böyük Britaniya və SSRİ-dən ibarət Böyük Üçlük tarixdə ilk dəfə olaraq Avropanın tarixi taleyini özlərinə məxsus şəkildə həll etmək üçün unikal fürsət əldə etmişdilər. Hələ müharibənin gedişində Böyük Üçlük ölkələri mənafelərini əks etdirən mövqelərini ortaya qoyur və ona uyğun siyasətlərini irəli sürürdülər. Sovet ordusunun Mərkəzi və Cənub-Şərqi Avropa ölkələrinə daxil olması ilə region ölkələrinin gələcək taleyi və onların SSRİ ilə münasibətləri məsələsi gündəmə gətirilmişdi. Bəs olunan region uğrunda döyüşlər ərəfəsində və gedişində Sovet İttifaqı region ölkələrindəki kommunistlər başda olmaqla sovetyönümlü siyasətçiləri dəstəkləməyə başlamışdı. Bununla yanaşı, SSRİ

Avropanın bu hissəsindəki xüsusi maraqlarının müttəfiqləri tərəfindən də tanınmasına nail olmağa çalışırdı.

Balkanlarda sovet qoşunlarının mövcudluğu faktı ilə üzləşən Böyük Britaniyanın baş naziri U.Çörçill reallıqla barışaraq, 1944-cü ildə Yunanıstan istisna olmaqla, digər region ölkələrinin Sovet İttifaqının təsir dairəsinə daxil edilməsinə razılıq vermək məcburiyyətində qaldı. [Черчилль, 1991, стр. 448-449] Üstəlik, 1944-cü ildə İ.Stalin Londonda mühacir hökumətin yerləşməsinə rəğmən Polşada sovetyönümlü hökumətin qurulmasına nail oldu. Lakin, Böyük Üçlük ölkələri arasında Polşanın gələcək taleyi ilə bağlı kəskin fikir ayrılıqları qalmaqda davam edirdi.

Müharibədən sonra yeni dünya nizamı məsələsi də mühüm problemlərdən biri kimi siyasi gündəmin zirvəsində yer alırdı. Bu problemin həlli üçün antihitler koalisiyasının bütün üzv ölkələrinin mənafelərini nəzərə almaq və onları uzlaşdırmaq tələb olunurdu. Əslində hələ müharibə başa çatmadan dünyanın sülh dövründə beynəlxalq nizamının əsas konturları 1944-1945-ci illərdə keçirilmiş bir neçə fundamental beynəlxalq konfranslarda cızılmışdır:

1) Beynəlxalq valyuta və maliyyə münasibətlərini inkişaf etdirmək, müharibənin dağıdıcı nəticələrini tez bir zamanda aradan qaldırmaq məqsədilə 1-22 iyul 1944-cü il tarixində ABŞ-ın Bretton-Vuds qəsəbəsində antihitler koalisiyasına daxil olan 44 ölkədən 730 nümayəndənin iştirakı ilə keçirilən konfransda müharibədən sonrakı sülh dövründə dünya iqtisadiyyatının tənzimlənməsində beynəlxalq əməkdaşlığın əsasları qoyulmuşdu. [Сидоров, 2014, c.140-184]

2) Sonradan Çin daxil olmaqla Böyük Üçlük ölkələrinin 21 avqust - 7 oktyabr 1944-cü ildə Vaşinqtonda baş tutan Dumbarton Okse konfransında dünyanın müharibədən sonrakı quruluşu, sülh və təhlükəsizliyin qorunması üçün beynəlxalq təşkilatın yaradılması məsələləri müzakirə edilmişdi.

3) Nüvə erasının başlanması ərəfəsində antihitler koalisiyası liderlərinin - Böyük Üçlüyün son konfransı olaraq bilinən və 4-11 fevral 1945-ci il tarixində baş tutan Yalta (Krım) konfransı müharibədən sonrakı dünya nizamının qurulmasına həsr edilmiş, xüsusilə də Avropanın siyasi cəhətdən yenidən təşkili üzrə gələcək danışıqlarda müttəfiqlərin mövqeləri razılaşdırılmışdı.

4) Böyük Üçlük adından çağırılmış və 50 dövlətin iştirakı ilə 1945-ci il aprelin 25-dən iyunun 26-dək ABŞ-ın San-Fransisko şəhərində keçirilən konfransda BMT Nizamnaməsi beynəlxalq münasibətləri tənzimləyən əsas və universal sənəd kimi müzakirə edilərək qəbul edilmişdi.

5) II Dünya Müharibəsi başa çatmadan, Sovet ittifaqının Yaponiyaya qarşı müharibəyə qoşulması ərəfəsində "Böyük Üçlük" liderlərinin sonuncu rəsmi görüşü olaraq bilinən və 1945-ci il iyulun 17-dən avqustun 2-dək keşirilmiş Potsdam və ya Berlin konfransında məğlub edilmiş Almaniya ilə bağlı siyasətin

aparılması prinsipləri dəqiqləşdirilmiş və Avropa düzənini bərpa etmək üçün konkret addımlar atılmışdı.

Şübhəsiz, müharibədən sonrakı dünya nizamı ilə bağlı ilkin müzakirələr hələ 1943-cü ildə Moskva (19-30 oktyabr) və Tehran (28 noyabr-1 dekabr) konfranslarında aparılmışdı. Bu müzakirələrin də məntiqi davamı olaraq, yeni dünya nizamı ilə bağlı bütün məsələlər antihitler koalisiyasında birləşən müttəfiqlərin iradəsi ilə Yalta və Potsdam konfranslarında öz həllini tapmışdır.

Konfranslarda Böyük Üçlük ölkələrinin əzəl məqsədləri müharibənin yekun mərhələsində Üçüncü Reyxin sonadək darmadağın edilməsi ilə bağlı mövcud planların koordinasiya edilməsi və müharibə başa çatdıqdan sonra yeni dünya nizamının təməlini formalaşdırmaq idi. Başqa sözlə, müttəfiqləri yenidən bir araya gətirəcək konfranslarda nasist Almaniyasının qeyd-şərtsiz kapitulyasiya olunanadək tam məğlubiyyətinə nail olmaq, bundan sonra təslim olmuş Almaniyanın gələcəyi, II DM zamanı dəymiş ziyana görə təzminatın ödənilməsi, müttəfiqlərin işğaldan azad etdikləri Avropa dövlətlərinə münasibətdə ümumi siyasi xəttin müəyyənləşdirməsi, yeni formalaşacaq beynəlxalq münasibətlər sisteminin sabitliyinin təmin olunmasında həlledici amilə çevrilmiş “Polşa məsələsi” ilə bağlı məsələləri müzakirə etmək gündəlikdə dururdu. Dumbarton Okse konfransında özünün tam həllini tapmamış təhlükəsizlik və əməkdaşlıq üzrə beynəlxalq təşkilatın yaradılması məsələsini də tənzimləmək tələb olunurdu. Eyni zamanda, müttəfiqlər Sovet İttifaqının militarist Yaponiyasına qarşı müharibəyə başlamasının vaxtını və şərtlərini razılaşdırmalı idilər. Ümumi şəkildə qeyd etməyə çalışdığımız bütün bu məsələləri Böyük Üçlük ölkələri Yalta və Potsdam konfranslarında müzakirə və həll etməyi düşünürdülər.

## 3.Yalta və ya Krım konfransı

II Dünya Müharibəsinin başa çatması ərəfəsində antihitler koalisiyasında birləşən Böyük Üçlük ölkələri liderlərinin yenidən görüşməsi zərurəti yaranmışdı. Tehran konfransından sonra ABŞ, Böyük Britaniya və SSRİ liderlərini ikinci dəfə bir araya gətirəcək konfransın keçirilməsi müəyyən çətinliklərlə müşayət olunurdu. Konfransla bağlı yaranan ilk mübahisələr onun harada keçirilməsindən başlanmışdı. Konfransın ABŞ və SSRİ-nin arasında yerləşən Böyük Britaniyada, sonuncunun nəzarətində olan Qahirədə, Dekemvriana adlandırılan hərbi toqquşmaların yenicə başa çatdığı Afinada və ya faşist işğalından azad edilmiş Romada keçirilməsi təklif olunurdu. Almaniyanın SSRİ-yə vurduğu ziyanın miqyasını müttəfiqlərinə nümayiş etdirməyə çalışan sovet rəhbərliyi isə konfransın öz ölkələrində keçirilməsində israr edirdi. Sonda tərəflər arasında gizli yazışmalarda “Arqonavt” kod adını almış görüşün 1944-cü ilin mayında faşistlərdən təmizlənmiş Krımda keçirilməsi qərara alındı. Beləliklə, bundan 78 il öncə keçirilmiş Krım görüşü

başa çatmaqda olan müharibənin nəticələri ilə yanaşı, növbəti 45 illik bir dövrü əhatə edəcək dünya nizamını müəyyən etdi.

1945-ci il fevralın 4-dən 11-dək keçirilən Yalta konfransında müharibə dövründə Böyük Üçlük ölkələri liderlərinin ən mühüm və vacib görüşü baş tutdu. [Маныкин, 2001, c.36] Sovet İttifaqına səfər edən ilk Amerika prezidenti Franklin Ruzvelt, səfər çərçivəsində 1853-1856-cı illər Krım müharibəsində vuruşan Britaniya əsgərlərinin xatirəsini yad etmək məqsədilə Sevastopol və Sapun dağını ziyarət edən U.Çörçill və sonuncunun gözündə “rus diktatoru”, [Черчилль, 1998, c.218] öz ölkəsində isə “SSRİ xalqlarının rəhbəri” olan İ.Stalin 1945-ci il fevralın 4-də imperator II Nikolayın keçmiş yay iqamətgahı olan Livadiya sarayında görüşdülər.

Konfrans müharibənin qələbə ilə sonlandırılması və müharibədən sonra yeni dünya nizamı sahəsində veriləcək fundamental qərarlarla bağlı ortaq məxrəcə gəlinməsinə meyllilik şəraitində keçirdi. Konfransda cəbhələrdə mövcud vəziyyətə dair dinləmələrdən sonra, tərəflər müttəfiq ordularının bütün istiqamətlərdən Almaniyaya zərbələr endirməyə hazır olduğunu, hərbi əməliyyatların nasist Almaniyasının qeyd-şərtsiz kapitulyasiyasınadək davam etdirilməsinin vacibliyini bir daha təsdiqlədilər. Qeyd edək ki, məhz Yalta konfransı zamanı Böyük Üçlük ölkələri liderləri Almaniyanın öz sərhədləri daxilində darmadağın edilməsi, ərazisinin ələ keçirilməsi ilə bağlı prinsipial razılığa gəlmiş və son qərarı vermişdilər.

Konfrans iştirakçıları başlıca diqqəti müharibənin başa çatması problemlərinə, faşist Almaniyasının kapitulyasiya olunması şərtlərinə, ölkənin işğal zonalarına bölünməsi, hərbi əsirlər, konsentrasiya düşərgələri əsirləri, ostarbayterlərin (Şərqdən gələn işçi) vətənə qaytarılmasını nəzərdə tutan repatriasiya və müharibədə vurduğu ziyana görə kompensasiya ödənilməsi ilə bağlı reparasiya məsələlərinə yönəltmişdilər. İlk öncə sovet rəhbərliyinin istəyinə müvafiq olaraq, siyasi problemlərin müzakirəsinə Almaniya məsələsindən başlanıldı. Almaniya ilə bağlı qəbul olunmuş bəyanatda və kommyunikedə müttəfiqlərin bu ölkəni işğal etməkdə məqsədlərinin alman militarizmi və nasizminin kökünü kəsmək, Almaniyanın bir daha bütün dünyada sülhü poza bilməyəcəyinə dair təminatlar yaratmaq olduğu açıq şəkildə qeyd olunurdu. XX əsrdə 25 illik fasilə ilə iki dəfə dünya müharibəsinə rəvac verməsinə baxmayaraq, müttəfiqlər nasizmin "bütün təzahür formalarını" ləğv etdikdən sonra işğal rejimini aradan qaldırılmağı düşünürdülər. Bunun üçün Almaniyanın Baş Qərargahını, silahlı qüvvələrini tərksilah və ləğv etmək, *“hərbi texnikanı ələ keçirmək və ya məhv etmək, hərbləşdirilmiş Alman sənayesini ləğv etmək və ya nəzarəti ələ keçirmək, müharibə cinayətkarlarını ədalətli və tez bir zamanda cəzalandırmaq, Nasist Partiyasını, nasist qanunlarını, təşkilatlarını və qurumlarını silmək, ictimai qurumlardan, alman*

*xalqının mədəni və iqtisadi həyatından bütün nasist və militarist təsirləri aradan qaldırmaq”* [М-во иностр. дел СССР, 1979, с.225] planlaşdırılırdı. Eyni zamanda, məqsədlərinə *“alman xalqının məhvi”* daxil olmadığını vurğulayan müttəfiqlər, *“yalnız nasizmin və militarizmin kökü kəsildikdə alman xalqının ləyaqətli yaşamasına və xalqlar birliyində özünə yer tapacağına”* [М-во иностр. дел СССР, 1979, с.266] ümid bəsləyirdi.

Bütün Almaniyanın müttəfiqlər arasında işğal zonalarına bölünməsi nəzərdə tutulurdu. Müttəfiqlər Avropa Məşvərət Komissiyası tərəfindən 12 sentyabr 1944-cü ildə hazırlanmış *“Almaniyanın işğal zonaları və Böyük Berlinin idarə edilməsi haqqında”*, [Попов, 1995, с.314-316] habelə 14 noyabr 1944-cü ildə hazırlanmış *“Almaniyada nəzarət mexanizmi haqqında”* [Попов, 1995, с.318-320] sazişləri təsdiqlədilər. Birinci sazişə əsasən Almaniyanın şərqini (faktiki olaraq sovet işğal zonasına düşən "Böyük Berlin"in yalnız şimal-şərq hissəsi daxil olmaqla) SSRİ, ölkənin və "Böyük Berlin"in şimal-qərb hissəsini Böyük Britaniya, ölkənin cənub-qərbini və "Böyük Berlin"in cənub hissəsini isə ABŞ silahlı qüvvələrinin işğal etməsi qərara alınmışdı. [Попов, 1995, с.315] Plana əsasən Almaniyada ali hakimiyyət funksiyalarını yerinə yetirəcək Mərkəzi Nəzarət Komissiyasının "Böyük Berlin"də hər üç dövlətin şəhərdəki payına düşən işğal zonasında yerləşəcəyinə rəğmən, Britaniya və ABŞ qoşunlarının Berlinə daxil olması nəzərdə tutulmurdu. Böyük Üçlük ölkələri ali baş komandanlarından ibarət Mərkəzi Nəzarət Komissiyasının Almaniyada əlaqələndirilmiş idarəetmə və nəzarəti həyata keçirməsi planlaşdırılırdı. Üç müttəfiq dövlət Fransanı da, istəyərsə, Almaniyada işğal zonasını ələ keçirmək və Nəzarət Komissiyasına dördüncü üzv kimi dəvət etməyi qərara aldılar. Fransaya veriləcək işğal zonasının hüdudlarını müttəfiqlərin Avropa Məsləhət Komissiyasındakı nümayəndələri vasitəsilə razılaşdırılması nəzərdə tutulsa da, [М-во иностр. дел СССР, 1979, с.266] sonradan ona Britaniya və ABŞ zonalarının bir hissəsi ayrıldı. [М-во иностр. дел СССР, 1979, с.277-278] Qəbul olunmuş kommyunikeyə əlavələrdə göstərilən işğal zonalarının sərhədləri müharibənin sonuna qədər dəyişməz qaldı. Sovet işğal zonasını digərlərindən ayıran bölücü xətt sonradan AFR ilə ADR arasında sərhəddə, o da öz növbəsində soyuq müharibə dövründə sistemlər arası qarşıdurmanın simvoluna çevrildi.

Hökumət başçılarının 5 fevral 1945-ci il tarixli görüşündə İ.Stalinin təklifi ilə yenidən Almaniyanın parçalanması planları müzakirə olunmuşdu. Hələ Tehran konfransında prezident Ruzvelt tərəfindən Almaniyanın beş hissəyə bölünməsi təklif olunmuşdu. Tərəddüd edən U.Çörçill hər hansı bir konkret planı dəstəkləməsə də Almaniyanın parçalanması ideyasını dəstəkləyirdi. Baş nazirə görə, kapitulyasiya aktı özlüyündə müttəfiqlərə Almaniyanın parçalanması ilə bağlı əlavə tələb təqdim etmək, *"Almaniyanın taleyini müəyyən etmək"*

hüququnu verirdi. Məsələyə konkret münasibət bildirməyən, lakin tərəflərin mövqeyini aydınlaşdırmağı qarşısına məqsəd qoyan İ.Stalin isə qəti şəkildə bəyan etmişdir ki, *"parçalanma tələbi əlavə deyil, çox vacib tələbdir"*. Liderlərin tapşırığı üzrə bu məsələni xarici işlər nazirləri müzakirə etdikdən sonra, Almaniyanın müharibədən sonrakı məsələləri üzrə xüsusi komitənin yaradılması və Almaniyanın parçalanması məsələsinin də orada müzakirə olunması qərara alındı. [М-во иностр. дел СССР, 1979, с.64-66]

Kongransda növbəti fikir ayrılıqları *"müharibənin ən ağır yükünü çəkmiş, ən çox itki vermiş, düşmən üzərində qələbəni təşkil etmiş dövlətlərin"* alması nəzərdə tutulan reparasiya məsələsi ilə bağlı yaranmışdı. *"Almaniyadan natura şəklində alınacaq reparasiya məsələsinə dair Krım Konfransında üç hökumət başçıları arasında danışıqlara dair Protokol"*a əsasən Böyük üçlük ölkələri nümayəndələrindən ibarət Moskvada Müttəfiqlərarası reparasiya komissiyası yaradılırdı. Protokola görə, reparasiyanın ümumi miqdarının 20 milyard dollar dəyərində olması və onun yarısının SSRİ-yə verilməsi ilə bağlı sovet tərəfinin təklifini amerika nümayəndələri qəbul etmiş, Britaniya nümayəndələri isə hesab edirdi ki, məsələyə Komissiya tərəfindən baxılana qədər *"reparasiya ilə bağlı heç bir rəqəm verilə bilməz"*. Sovet və amerika nümayəndələri arasında əldə olunmuş razılığa əsasən, *"komissiya öz işinin ilkin mərhələsində sovet hökumətinin təklifini müzakirə üçün əsas kimi qəbul edəcək"*. [М-во иностр. дел СССР, 1979, с.272]

Qarşılıqlı razılıq və kompromislər şəraitində keçən Yalta konfransında qəbul edilmiş "Azad Avropa haqqında Bəyannamə" Böyük Üçlük hökumətlərinin faşist Almaniyası və nasist bloku ölkələrinin hökmranlığından azad edilmiş xalqlara münasibətinin ortaq prinsiplərini müəyyən edirdi. Müttəfiqlər *"Avropada nizam-intizamın bərqərar olmasına, milli təsərrüfat həyatının yenidən qurulmasına nail olmaq"* üçün Bəyannamədə azad edilmiş xalqlara nasizmin və faşizmin son izlərini məhv etmək, demokratik təsisatlar yaratmaq, öz idarəetmə formasından məhrum edilmiş xalqların suveren hüquqlarının bərpası nəzərdə tutulurdu. [М-во иностр. дел СССР, 1979, с.267-268, 276-277] Yalta konfransında müttəfiqlər Balkan məsələlərinə də ümumi nəzər yetirmiş və region dövlətlərini öz aralarında faktiki bölüşdürmüşdülər. Müttəfiqlər İosip Broz Titonun fəaliyyətini lazımınca qiymətləndirməyərək, Yuqoslaviyada Müvəqqəti Birləşmiş Hökumətin yaradılması qərarına gəldilər. Hələ 9 oktyabr 1944-cü ildə baş tutan Moskva danışıqları zamanı İ.V.Stalin və U.Çörçill arasında Cənub-Şərqi Avropanın təsir dairələrinə bölünməsi ilə bağlı əldə olunmuş "Faiz sazişi"nə əsasən Yunanıstanın Böyük Britaniyaya, Macarıstan, Bolqarıstan və Rumıniyanın isə SSRİ-yə verilməsinə qərar verilmişdi. [Черчилль, 1991, стр.448-449]

Bundan başqa, konfransda Yuqoslaviya-Bolqarıstan müttəfiqlik müqaviləsinin bağlanmasının məqsədəuyğunluğu məsələsi, İtaliya-Yuqoslaviya və Avstriya-Yuqoslaviya sərhədləri, Bolqarıstanda nəzarət komissiyası, Yunanıstanın Bolqarıstana qarşı təzminat daxil olmaqla iddiaları, Rumıniyada neft-mədən avadanlıqları, Türkiyənin Bosfor və Dardanel boğazları üzərində suverenliyini bərpa edən 1936-cı il Montrö Konvensiyası ilə bağlı Sovet hökumətinin təklifləri, İrandakı vəziyyət haqqında ətrafında fikir mübadiləsi aparılmışdı.

Müttəfiqlər arasında Polşanın gələcəyi ilə bağlı kəskin mübahisələr yaranmışdı. Krım konfransı üzrə kommyunikedə də qeyd olunduğu kimi, müttəfiqlər *“Polşa məsələsinin bütün aspektlərini tam şəkildə müzakirə etmək” və “Polşa məsələsi ilə bağlı fikir ayrılıqlarını həll etmək üçün toplaşmışdılar*”. [М-во иностр. дел СССР, 1979, с.269-270] Aparılan görüşlərdə gələcəkdə Polşa hökumətinin tərkibi və ölkənin sərhədləri məsələsində tərəflər fərqli mövqe nümayiş etdirirdilər. Lakin 1945-ci ilin yanvarında sovet qoşunlarının Varşavanı azad etməsi ilə yaranmış yeni vəziyyət SSRİ-nin mövqeyini xeyli gücləndirmiş, sovetlərin himayəsində qurulmuş müvəqqəti hökumət isə paytaxtda yerləşmişdi. Polşada fəaliyyət göstərən Müvəqqəti Hökumətin tanınması məsələsində sovetlərin israrlı mövqeyinə qarşı, Londonda mühacirətdə olan hökumətin qanuni hüquqlarını sonadək müdafiə edə bilməyən Qərb müttəfiqləri ən azından hər iki tərəfin iştirakı ilə yenidən milli birlik hökumətinin təşkilini təklif edirdilər. Ağır müzakirələrdən sonra tərəflərin kompromis razılaşmasını özündə əks etdirən Polşa ilə bağlı Bəyannamə qəbul edildi: *“Polşada fəaliyyət göstərən Müvəqqəti Hökumət Polşanın özündən və xaricdən olan polyaklardan olan demokratik xadimlərin daxil edilməsi ilə daha geniş demokratik əsasda yenidən təşkil edilməli”, “yeni hökumət daha sonra Polşanın Müvəqqəti Milli Birlik Hökuməti adlandırılmalı”, “gizli səsvermə yolu ilə ümumi seçki hüququ əsasında ən qısa zamanda azad və maneəsiz seçkilər keçirməyi öhdəsinə götürməlidir”.* Yalnız bu şərtlər yerinə yetirildikdən sonra Böyük Britaniya və ABŞ müvəqqəti Milli Birlik Hökuməti ilə diplomatik əlaqələr quracaq və səfirlər mübadiləsi aparacaq. [М-во иностр. дел СССР, 1979, с. 279-280]

Polşanın sərhədləri məsələsi müzakirə olunarkən onun şərq və qərb sərhədləri ilə bağlı müəyyən fikir ayrılıqları nəzərə çarpırdı. Hələ 1920-ci ildə Böyük Britaniya xarici işlər naziri Lord Kerzonun təklif etdiyi və 1939-cu ildə SSRİ-nin Polşaya hücumu ilə artıqlaması ilə (Belastok və Lvov istiqamətində) reallaşdırılmış “Kerzon xətti” Sovet İttifaqının yeni qərb sərhəddinə çevrilmişdi. ABŞ prezidenti F.Ruzvelt “Kerzon xətti”ndə Polşanın xeyrinə bəzi dəyişikliklər etməklə, Lvov şəhəri və yaxınlıqda yerləşən neft yataqlarını sovetlərin güzəştə getməsini təklif edirdi. Sovet İttifaqının bu ərazilərə iddiasının qanuni olduğunu

bəyan edən U.Çörçill isə ABŞ prezidentinin təklifləri ruhunda bəzi düzəlişlərin edilməsinin mümkünlüyünü vurğulayırdı. Lakin İ.Stalinin heç bir güzəştə getmək istəməməsi nəticəsində Qərbli həmkarları reallıqla barışmaq məcburiyyətində qaldılar. Polşanın qərb sərhədləri ilə bağlı bir qərara gəlinmədiyindən sülh konfransına qədər təxirə salındı. Konfrans iştirakçılarının yekun qərarına əsasən *"Polşanın şərq sərhədi "Kerzon xətti" ilə keçməlidir, bəzi ərazilərdə ondan Polşanın xeyrinə beş-səkkiz kilometrə qədər kənara çıxmalıdır", "Polşa Şimalda və Qərbdə ərazisini əhəmiyyətli dərəcədə artırmalıdır"*. [М-во иностр. дел СССР, 1979, с.270, 280]

Məxfiliyə görə konfransın yekun kommyunikesinə daxil edilməsə də Sovet İttifaqının Yaponiyaya qarşı müharibəyə girməsi məsələsi Yaltada əsas müzakirə mövzularından biri idi. Böyük Britaniya və ABŞ liderləri onlar üçün son dərəcə vacib olan bu məsələdə hər cür güzəştə getməyə hazır idilər. Yaranmış vəziyyətdən məharətlə istifadə edən sovet lideri Uzaq Şərq məsələlərində ciddi güzəştlər qarşılığında *"Almaniyanın təslim olmasından və Avropada müharibə bitdikdən iki-üç ay sonra Sovet İttifaqnını müttəfiqlərin tərəfində Yaponiyaya qarşı müharibəyə girəcə"*yinə razılıq verdi. Konfransın son günü üç böyük dövlətin liderlərinin imzaladığı gizli sazişdə sovet liderinin bütün tələbləri təmin olunmuşdu: Monqolustan Xalq Respublikasına münasibətdə status-kvonun saxlanması, Saxalin adasının cənub hissəsini və ona bitişik bütün adaları Sovet İttifaqına qaytarmaqla 1904-1905-ci illər müharibəsində Rusiyanın pozulmuş hüquqlarının bərpası (Port-Arturun bərpası, Dayren ticarət limanının beynəlmiləlləşdirilməsi, Şərqi-Çin və Cənubi Manjuriya dəmir yolunun birgə istismarı), Kuril adalarının Sovet İttifaqına verilməsi. [М-во иностр. дел СССР, 1979, с.273]

Beləliklə, 1945-ci ilin fevralında cəbhədə vəziyyətin köklü şəkildə dəyişməsi fonunda Yaltada toplaşan üç böyük dövlətin liderləri diplomatiya sahəsində yüksək nailiyyət əldə edərək müasir dünya düzəninin əsaslarını qoydular. Müharibədən sonrakı dünya nizamı ilə bağlı bu konfransda həllini tapmayan müəyyən məsələlər tezliklə Potsdam və ya Berlin konfransında öz həllini tapdı.

**4.San-Fransisko konfransı və Birləşmiş Millətlər Təşkilatının yaradılması**

Hələ müharibə dövründə antihitler koalisiyasında birləşmiş dövlətlər beynəlxalq əməkdaşlığı və təhlükəsizliyi təmin edəcək yeni format axtarışında idilər. Antihitler koalisiyasının iyirmi altı üzvünün imzaladığı 1 yanvar 1942-ci il tarixli Birləşmiş Millətlər Bəyannaməsi sonradan yaradılacaq Birləşmiş Millətlər Təşkilatının əsasında dururdu. Müharibənin sonlarına doğru "Birləşmiş millətlər" adı altında antifaşist cəbhəsində birləşən müttəfiqlərin sayı 47-yə çatmışdı. Beynəlxalq sülhü və təhlükəsizliyi təmin edəcək beynəlxalq təşkilatın yaradılması məsələsi 1943-cü il Moskva konfransının məxfi protokolunda yer almış, "Böyük üçlük" liderlərinin Tehran və Yalta konfranslarında müzakirə

edilmişdi. Universal təşkilatın yaradılmasına dair məsələlər qeyri-rəsmi şəraitdə 1944-cü ilin avqust-sentyabr aylarında keçirilmiş Dumbarton Okse konfransında ətraflı müzakirə olunmuş və gələcək konturları müəyyən edilmişdi. Burada təşkilatın adı, məqsədi, prinsipləri, əsas orqanları üzrə razılıq əldə olunsa da, faşist dövlətlərinə beynəlxalq məhdudiyyətlər, Təhlükəsizlik Şurasında veto hüququndan istifadə, sovet respublikalarının ayrı-ayrılıqda BMT-yə qəbul edilməsi kimi məsələlərlə bağlı fikirayrılıqları qalırdı.

Yalta konfransında sonradan Birləşmiş Millətlər Təşkilatı adlanacaq təşkilatın beş daimi üzvdən ibarət Təhlükəsizlik Şurasında səsvermə proseduru ilə bağlı mühüm razılıq əldə olundu. *“Mübahisələrin sülh yolu ilə həllində yekdillik prinsipindən kənara çıxmağa yol verilməsi”* məsələsində sovet nümayəndə heyəti güzəştə gedərək ABŞ-ın təklifini qəbul etdi. İlkin layihəsi hələ Dumbarton Okse konfransında işlənmiş yeni təşkilatın Nizamnaməsinin hazırlanması və qəbul edilməsi üçün 25 aprel 1945-ci ildə ABŞ-ın San-Fransisko şəhərində konfransın çağırılması qərara alındı. [М-во иностр. дел СССР, 1979, с.267] San-Fransisko konfransına *“8 fevral 1945-ci il tarixinə Birləşmiş Millətlər tərkibinə daxil olan dövlətlər”, habelə “1945-ci il martın 1-dək ümumi düşmənə müharibə elan etmiş 8 qoşulmuş dövlət və Türkiyə”nin* dəvət olunması qərarlaşdırıldı. Böyük Britaniya və Amerika Birləşmiş Ştatlarının nümayəndələri SSRİ-nin bütün ittifaq respublikalarının BMT-də iştirakı təklifini geri götürməsi qarşılığında, işğala məruz qalaraq ən çox zərər çəkmiş sovet respublikaları kimi Ukrayna və Belarusun ilkin üzvlüyə qəbul edilməsi təklifini dəstəklədilər. [М-во иностр. дел СССР, 1979, с.274]

Yeni təşkilatın ideya müəllifi hesab olunan ABŞ prezidenti F.Ruzveltin aprelin 12-də vəfat etməsinə baxmayaraq, təxminən iki həftə sonra, 1945-ci il aprelin 25-də San-Fransiskoda Birləşmiş Millətlər Təşkilatının (BMT) təsis konfransı ABŞ-ın yeni prezidenti H.Trumenin açılış müraciəti ilə öz işinə başladı. [М-во иностр. дел СССР, 1980, Т. V, с.5-35] “Böyük üçlük” ölkələri adından çağırılmış, 50 təsisçi dövlətin 850 nümayəndəsinin iştirakı ilə keçən konfransın gündəliyinə BMT Nizamnaməsinin hazırlanması, təşkilatın məqsəd və prinsipləri, Təhlükəsizlik Şurası və Baş Assambleya, qərar qəbul etmə proseduru, Beynəlxalq Məhkəmə, Beynəlxalq qəyyumluq sistemi kimi məsələlər daxil edilmişdi. Konfransın gedişində sovet və amerika nümayəndələri arasında ciddi fikir ayrılıqları olduğu aşkara çıxdı. Sələfindən fərqli olaraq, köklü dəyişikliklərə gedən ABŞ-ın yeni prezidenti Harri Trumen SSRİ-yə münasibətdə artıq güzəştlərə etmək fikrində deyildi. Hələ Yalta konfransında əldə olunmuş Təhlükəsizlik Şurasının beş daimi üzvünün qərarların qəbulunda yekdilliyi prinsipi və veto hüququ ilə bağlı razılaşmalara haqlı olaraq qarşı çıxan ABŞ prezidenti SSRİ-nin ciddi müqaviməti ilə üzləşmişdi. Nəticədə, bugündə BMT ilə bağlı başlıca narazılıqların (məsələn, “dünya beşdən böyükdür” tezisi)

kökündə duran bu məsələlər SSRİ-nin israrlı tələbləri səbəbində zamanında hamılıqla qəbul olunacaq məqbul həllini tapmadı.

Konfransın yekun plenar iclasının keçirildiyi 26 iyunda BMT-nin təsisçi dövlətləri tərəfindən təşkilatın Nizamnaməsi imzalandı. Tələb olunan minimum həddə, 29 dövlətin ratifikasiya sənədi daxil olduğu gün - 24 oktyabr 1945-ci ildə BMT Nizamnaməsi qüvvəyə mindi. Bununla da antihitler koalisiyasında birləşən dövlətlərin böyük səyi nəticəsində beynəlxalq sülhü və təhlükəsizliyi təmin edəcək BMT-nin yaradılması mümkün oldu.

**5.Potsdam və ya Berlin konfransı**

Mayın 7-də Fransanın Reyms şəhərində, bir gün sonra Berlinin cənub-şərq hissəsi Karlshorstda Alman Silahlı Qüvvələrinin iki dəfə qeyd-şərtsiz hərbi kapitulyasiya aktını imzalanmasından sonra [Протокол работы Крымской конференции, 1955, c.82-83] rəsmi olaraq Avropada müharibə başa çatdı. Nasist Almaniyasının sonuncu hökuməti kross-admiral K.Dönitzin həbsindən iki həftə sonra, 5 iyun 1945-ci ildə SSRİ, Böyük Britaniya, ABŞ hökumətləri və Fransanın müvəqqəti hökuməti Almaniya üzərində ali hakimiyyətin ələ keçirilməsi, işğalçı hakimiyyət orqanlarının qanunvericilik və inzibati fəaliyyəti üçün hüquqi əsas olan "*Almaniyanın məğlubiyyəti haqqında Bəyannamə*"ni Berlində imzaladılar. Bəyannamənin ilkin mətni hələ 25 iyul 1944-cü ildə Avropa Məşvərət Komissiyası tərəfindən hazırlanmış, 12 may 1945-ci ildə ona əlavə və dəyişikliklər edilmişdir. [Декларация о поражении Германии, 1985, c.237] Kapitulyasiya aktını qəbul edən SSRİ Almaniya ilə ayrıca sülh imzalamadı və formal olaraq müharibə vəziyyəti 25 yanvar 1955-ci ilədək davam etdi.

Əvvəlki konfranslardan fərqli olaraq, Potsdam və ya Berlin konfransı artıq Avropada müharibənin başa çatmasından sonra keçirilirdi. [М-во иностр. дел СССР, 1980, T. VI, c.11] Konfransın keçiriləcəyi yer hər hansı mübahisələr olmadan, simvolik olaraq 1933-cü il martın 21-də A.Hitlerin Almaniya kansleri təyin olunduğu, müharibə nəticəsində paytaxta nisbətən dağıntılara az məruz qalmış Potsdam şəhəri müəyyən edilmişdi. Avropada müharibənin başa çatmasına baxmayaraq, davam edən II Dünya Müharibəsi illərində "*Böyük üçlük*" liderlərinin kod adı "Terminal" olan sonuncu konfransı 17 iyul - 2 avqust 1945-ci il tarixlərində məğlub edilmiş Üçüncü Reyxin paytaxtından iyirmi kilometr məsafədə yerləşən Potsdamın Cecilienhof sarayında baş tutdu. Dünya tarixində xüsusi yer tutan Potsdam Konfransına qalib dövlətlərin liderləri - İ.V.Stalin, H.Trumen, U.Çörçil (Böyük Britaniyada seçkilərdən sonra K.Ettli) müharibədən sonrakı yeni dünyan nizamını qurmaq üçün toplaşmışdılar.

Konfransın işində antisovet meyillərin xeyli artdığı müşahidə olunsa da, sonda kompromis meyllər üstünlük təşkil etdi. Burada başlıca məqsəd antihitler koalisiyasının lider dövlətlərinin faşist Almaniyası və müttəfiqləri üzərində

hərbi qələbəsini siyasi müstəviyə keçirərək rəsmiləşdirmək, müharibədən sonrakı nizamlanma problemlərinə dair Yalta konfransının qərarlarını inkişaf etdirmək, Avropada yeni təcavüzkar müharibələrin qarşısını almaq, davamlı sülhə nail olmaq, Yaponiyaya qarşı müharibənin davam etdirilməsi ilə bağlı məsələləri müzakirə etmək idi. Sonuncu məsələ üzrə SSRİ-nin Yaponiyaya qarşı müharibəyə başlamaq öhdəliyini təsdiq etməsi faktı, əslində, konfransın gedişində ciddi fikir ayrılıqları doğuran mürəkkəb problemlərin uğurla həll olunmasında başlıca rol oynadı.

Konfransda ilk olaraq Almaniyanın keçmiş müttəfiqləri - İtaliya, Finlandiya, Rumıniya, Bolqarıstan, Macarıstanla sülh müqavilələrinin hazırlanması və bağlanması məqsədilə Xarici İşlər Nazirləri Şurasının yaradılması barədə razılığa gəlindi. Çin və Fransa da dəvət olunmaqla beş ölkənin xarici işlər nazirlərindən ibarət Şura sülh müqavilələrinin layihələrini hazırlamaqla yanaşı, bununla əlaqədar yaranan ərazi məsələlərinin həlli üçün də təkliflər hazırlamalı idi. [М-во иностр. дел СССР, 1980, Т. VI, с.427-429] Böyük üçlük liderləri *“sülh müqavilələrinin bağlanması ilə İtaliya* (müstəmləkələri məsələsi ilə birlikdə - K.İ.)*, Bolqarıstan, Finlandiya, Macarıstan və Rumıniyanın indiki anomal mövqeyinin dəyişdirilməsini məqsədəuyğun hesab edirdilər”.* [М-во иностр. дел СССР, 1980, Т. VI, с.441]

Məğlub Almaniyaya münasibətdə ümumi siyasətin əsas istiqamətləri, tərəflərin irəli sürdüyü siyasi şərtlər, qısa şəkildə "4 D" adlandırılan - demokratikləşmə (azadlıqlarının bərpası, çoxpartiyalı seçkilər və hakimiyyət bölgüsü), demilitarizasiya (tam tərksilah), denasifikasiya (bütün nasist təşkilatlarının ləğvi) və dekartelizasiyasına (iqtisadi gücünün dekonsentrasiyası) dair siyasi və iqtisadi prinsiplər kimi danışıqların mərkəzində yer alan məsələlərdə razılığa gəlindi. Bu isə ilk nəzarət dövründə Almaniya silahlı qüvvələrinin tam tərksilah edilməsi, silahsızlaşdırılması, bütün qoşun növlərinin və hərbi sənayenin ləğvi, nasional-sosialist partiyasının, bütün nasist qurum və təşkilatların ləğvi, hərbi cinayətkarların cəzalandırılması, nasist və militarist təbliğatın qarşısının alınması, siyasi həyatının demokratik əsaslarla yenidən təşkili, bütün irqi və ayrı-seçkiliyə əsaslanan qanunlarının ləğvi, alman sənayesinin dinc dövrə keçidinin təmin olunması, yerli özünüidarənin bərpası, bütün demokratik partiyaların, həmkarlar ittifaqlarının və digər ictimai təşkilatların fəaliyyətini nəzərdə tuturdu. [М-во иностр. дел СССР, 1980, Т. VI, с.430-434]

Reparasiya məsələsində də razılıq əldə edildi. Lakin müharibə zamanı müttəfiq dövlətlərə dəymiş zərərin natura şəklində ödənilməsi ilə bağlı Yalta qərarına münasibətdə ABŞ mövqeyində dəyişiklik edərək hər bir dövlət üçün konkret məbləğin müəyyən edilməsinə qarşı çıxdı. ABŞ-ın təzminatların zonalar üzrə tutulması prinsipini qəbul edən SSRİ, əlavə olaraq təzminat kimi Qərbi

Almaniyadan avadanlıqların 25%-nin verilməsini tələb etdi. Sonda tərəflər arasında kompromis əldə olundu. Bu məsələ ilə bağlı əsasən Yaltada qəbul edilmiş müddəaları özündə əks etdirən xüsusi saziş imzalandı. [М-во иностр. дел СССР, 1980, Т. VI, c.434-436] Konfransda Almaniya hərbi-dəniz və ticarət donanmasının bölüşdürülməsinin prinsipləri müəyyən edilmiş və üç qalib dövlət arasında bərabər (30 sualtı qayıq istisna olmaqla digərləri batırılmaqla) bölünməsi qərara alınmışdı. [М-во иностр. дел СССР, 1980, Т. VI, c.436-438] Bundan əlavə, konfrans dəqiq sərhədləri sonradan ekspertlər səviyyəsində araşdırılmaqla "Königsberq şəhərinin və ona bitişik ərazinin Sovet İttifaqına verilməsi haqqında sovet hökumətinin təklifi ilə prinsipial olaraq razılaşdı". [М-во иностр. дел СССР, 1980, Т. VI, c.438.]

Yalta konfransında qəbul edilmiş əsas nasist müharibə cinayətkarlarının mühakiməsi üzrə Beynəlxalq hərbi tribunalın yaradılması ilə bağlı yekun siyasi qərarın bəzi vacib məqamları Potsdamda razılaşdırılmışdı. Burada Britaniyanın əsas hərbi cinayətkarların tezliklə mühakimə olunmasını nəzərdə tutan layihəsi dəstəkləndi və İ.Stalinin tələbi ilə hərbi cinayətkarların ilk siyahısının dərc edilməsi qərara alındı. [Громыко и др., 1975, c.664-691] Qeyd edək ki, paralel olaraq İkinci Dünya Müharibəsində qalib gələn dörd dövlətin nümayəndələrinin Nürnberq məhkəməsinə hazırlıq məqsədilə iyunun 26-da London Konfransı öz işinə başlamış və avqustun 8-də xüsusi beynəlxalq məhkəmə orqanının - Beynəlxalq Hərbi Tribunalın yaradılması haqqında saziş imzalanmışdı. [Рекунков, 1987, c. 75; Потсдамская конференция, 1963, c.448-458] Nürnberq məhkəməsi 1945-ci il noyabrın 20-də işə başlamış və 1946-cı il oktyabrın 1-də biri qiyabi olmaqla 12 əsas hərbi cinayətkarın ölüm hökmü, 3 nəfər ömürlük, 2 nəfər 20, digər 2 nəfər müvafiq olaraq 15 və 10 il həbs cəzasına məhkum edilməklə başa çatmışdı.

Sovet layihəsi üzrə Polşa məsələsinə dair qəbul olunmuş bəyanatdan da göründüyü kimi, Böyük Britaniya və ABŞ Yalta qərarlarına müvafiq olaraq Polşa Müvəqqəti Hökuməti ilə diplomatik münasibətlər qurmuş və Londonda yerləşən T.Artsişevskinin baş naziri olduğu Polşa mühacir hökumətinin tanınmasını dayandırmış, sonuncunun sərəncamında və nəzarətində olan bütün vəsaitlərin, qiymətli əşyaların və digər əmlakın Polşanın müvəqqəti hökumətinə verilməsində köməklik göstərməyi öhdəsinə götürmüşdü. [М-во иностр. дел СССР, 1980, Т. VI, c.439-440] Yenə Yalta qərarlarına müvafiq olaraq, Oder çayı - Qərbi Neyse çayı xətti boyunca Polşanın qərb sərhədinin yaradılması, Şərqi Prussiyanın SSRİ-nin idarəçiliyinə verilməyən hissəsi və keçmiş azad Dansiq şəhərinin Polşa dövlətinin idarəsi altında olmasına razılıqlıq ifadə olundu.

Konfransın qərarlarından biri də Polşa, Çexoslovakiya və Macarıstan ərazilərində qalan alman əhalisinin bir hissəsinin Almaniyaya köçürülməsinə

həsr olunmuşdu. Müttəfiqlər *“alman əhalisinin və ya onun bir hissəsinin Polşa, Çexoslovakiya və Macarıstanda qalan hissəsinin Almaniyaya köçürülməsinin həyata keçirilməli olduğunu”* qəbul etdilər. [М-во иностр. дел СССР, 1980, Т. VI, с.443] Rumıniyada neft avadanlıqları, müttəfiq qoşunların Tehrandan, ardınca da İrandan çıxarılması, xüsusi strateji əhəmiyyəti olan Tanjer zonası və Qara dəniz boğazları kimi məsələlərdə konfransın gündəliyinə daxil edilmişdi.

**6.Beynəlxalq münasibətlərdə Yalta-Potsdam sisteminin formalaşması**

Yalta və Potsadam konfranslarının qərarları müharibədən sonrakı dünya nizamını müəyyənləşdirməklə yanaşı, antihitler koalisiyasında birləşmiş dövlətlər arasında müharibədən sonra beynəlxalq təhlükəsizlik və əməkdaşlığın saxlanmasına yönəlmişdi. Bu ali məqsədin həyata keçirilməsi mexanizmi kimi Birləşmiş Millətlər Təşkilatı yaradılmış və onun Nizamnaməsi qəbul olunmuşdu. Lakin BMT üzərinə düşən bu missiyanı yerinə yetirməkdə əsaslı problemlərlə üzləşirdi. Dünyada universal təşkilatın əsas yaradıcıları olan SSRİ və ABŞ arasında dərinləşən ziddiyyətlər bunu mümkünsüz edirdi. Bu baxımdan, əsası Yalta və Potsdam konfranslarında qoyulan müharibədən sonra yeni beynəlxalq münasibətlər sistemi bipolyar sistem çərçivəsində inkişaf edirdi.

Yalta-Podsdam sistemi bir sıra xüsusiyyətlərə görə əvvəlki Versal-Vaşinqton sistemindən köklü şəkildə fərqlənirdi. Beynəlxalq münasibətlərin yeni sistemi möhkəm müqavilə və hüquqi bazaya malik deyildi. Buna görə də müharibədən sonra beynəlxalq münasibətlərdə güc tətbiq etmək və ya hədələmək amili daha qabarıq şəkildə özünü büruzə verirdi. Beynəlxalq münasibətlərdə bipolyar sistemin formalaşmasına vəsilə olan Yalta-Potsadam sistemi, özlüyündə ikiqütblü dünya çərçivəsində təkamül etmək zorunda qalmışdı. Kapitalist və sosialist düşərgələri arasında siyasi-ideoloji qarşıdurmaya əsaslanan yeni dünya düzəni, görünməmiş miqyasda silahlanma yarışı ilə müşayət olunan konfrantasiya xarakteri daşıyırdı. Nüvə silahı yeni beynəlxalq münasibətlər sisteminin inkişafında mühüm amilə çevrilmiş, keyfiyyətcə yeni elementlər gətirmişdi. 1945-1949-cu illərdə ABŞ-ın atom monopoliyası ardından, SSRİ-nin də nüvə silahını əldə etməsi qarşıdurma şəraitinə müəyyən paritetlik gətirmişdi.

Eyni zamanda, həm bipolyar sistemin, həm də qarşıduran tərəflərin nüvə potensialının kifayət qədər kövrək olan beynəlxalq münasibətlər sistemində sabitləşdirici rolu da inkar edilməməlidir. Beynəlxalq münasibətlərin yüksək rəqabət qabiliyyətinə əsaslanan Yalta-Potsdam sistemi iki fövqəldövlətin iradəsinə bağlı olduğundan yüksək səviyyədə idarə oluna bilməsi ilə də seçilirdi.

**7.Nəticə**

SSRİ-nin dağılması və soyuq müharibənin başa çatması ilə qırx ildən çox davam edən Yalta-Potsdam sisteminin əsaslarının tədricən dağılmağa başlamasına baxmayaraq, hər iki konfrans böyük tarixi və beynəlxalq əhəmiyyət daşımaqdadır. XX əsrin ortalarında fərqli sistemləri təmsil edən dövlətlər

arasında əməkdaşlığın mümkünlüyünü nümayiş etdirən bu konfranslar, XXI əsrin ilk rübündə dünyanın üzləşdiyi ən mürəkkəb problemlərin həllində də nümunə göstəriləcək səviyyədə aktuallığını qoruyub saxlamaqdadır. Yalta və ya Krım konfransı antihitler koalisiyasında birləşən müttəfiqlərin müharibənin son mərhələsində nasist Almaniyası üzərində qələbənin əldə edilməsini təmin etdi və müharibədən sonrakı yeni dünya nizamının yaradılmasında mühüm mərhələ oldu. Potsdam və ya Berlin konfransı isə mövcud fikir ayrılıqlarına rəğmən müharibədən sonrakı nizamlanma problemlərinə dair Yalta konfransının qərarlarını inkişaf etdirdi, Avropanın gələcək taleyini həll edəcək qərarlar qəbul edərək yeni dünya nizamının əsaslarını formalaşdırdı. Beləliklə də yeni beynəlxalq münasibətlər sisteminin yaranmasının təməli qoyuldu.

## ƏDƏBİYYAT


1. Декларация о поражении Германии. (1985). *Великая Отечественная война 1941-1945: энциклопедия* (под ред. Козлова, М. М.). Москва: Советская энциклопедия, 832 с.
2. Маныкин, А. С. (2001). *Конфликты и кризисы в международных отношениях: проблемы теории и истории.* Москва: МГУ, 275 с.
3. Рекунков, А. М. (Отв. ред., автор предисл.). (1987). *Нюрнбергский процесс: Сборник материалов в 8 т.* (Т. 1). Москва: Юрид. лит., 688 с.
4. Потсдамская конференция. (1963). *История Великой Отечественной войны Советского Союза 1941-1945* (под ред. Рощина, С. И., Т. 5). Москва: Военное издательство МО СССР, , 652 с.
5. Громыко, А. А., Земскова И. Н., Зорина, В. А., Семёнова, В. С., & Харламова, М. А. (под ред.) (1975). Потсдамская конференция. *История дипломатии*. (2-е изд. Т. IV). Москва: Политиздат, 752 с.
6. Протокол работы Крымской конференции. (1955). *Сборник действующих договоров, соглашений и конвенций, заключенных СССР с иностранными государствами.* (Вып. XI). Москва, с. 82-83.
7. Попов, И. М. (Авт.-сост.). (1995). *Русский архив: Великая Отечественная.* (Т. 15, 4-5). Битва за Берлин (Красная Армия в поверженной Германии): Док. и материалы. Ин-т воен. истории М-ва обороны РФ, Центр. архив М-ва обороны РФ, Москва: ТЕРРА, 616 с.
8. Сидоров, А. А. (2014).Бреттон-Вудская конференция и строительство отложенный мировой порядок. *Вестник Московского университета. Серия 25: Международные отношения и мировая политика*, № 4, с. 140-184
9. М-во иностр. дел СССР. (1979). *Советский Союз на международных конференциях периода Великой Отечественной войны. Т. IV. Крымская конференция руководителей трех союзных держав - СССР, США и Великобритании (4-11 февраля 1945 г.): Сб. док.* Москва: Политиздат, 338 с.

**10.** М-во иностр. дел СССР (1980). *Советский Союз на международных конференциях периода Великой Отечественной войны. Т. V. Конференция Объединенных Наций в Сан-Франциско (25 апреля-26 июня 1945 г.): Сб. док.* Москва: Политиздат, 722 с.

**11.** М-во иностр. дел СССР (1980). *Советский Союз на международных конференциях периода Великой Отечественной войны. Т. VI. Берлинская (Потсдамская) конференция руководителей трех союзных держав - СССР, США и Великобритании (17 июля-2 августа 1945 г.): Сб. Док.* Москва: Политиздат, 551 с.

**12.** Черчилль, У. (1998). *Вторая Мировая война.* (Т. 4.). Альпина Паблишер, с. 218.- 2636 с.

**13.** Черчилль У. (1991). *Вторая мировая война.* (Том 3). Москва: Воениздат, с. 448-449.

## REFERENCES

**1.** Declaration of the Defeat of Germany. (1985). *The Great Patriotic War 1941-1945: Encyclopedia* (edited by Kozlov, M. M.). Moscow: Soviet Encyclopedia, 832 pages. (in Russian)

**2.** Manykin, A. S. (2001). *Conflicts and Crises in International Relations: Problems of Theory and History.* Moscow: Moscow State University, 275 pages. (in Russian)

**3.** Rekunkov, A. M. (Ed. and author of preface). (1987). *The Nuremberg Trials: Collection of Materials in 8 Volumes* (Vol. 1). Moscow: Legal Literature, 688 pages. (in Russian)

**4.** Potsdam Conference. (1963). *The History of the Great Patriotic War of the Soviet Union 1941-1945* (edited by Roshchin, S. I., Vol. 5). Moscow: Military Publishing House of the Ministry of Defense of the USSR, 652 pages. (in Russian)

**5.** Gromyko, A. A., Zemskova, I. N., Zorina, V. A., Semenova, V. S., & Kharlamova, M. A. (Eds.) (1975). The Potsdam Conference. *History of Diplomacy.* (2nd ed., Vol. IV). Moscow: Politizdat, 752 pages. (in Russian)

**6.** Protocol of the Yalta Conference. (1955). *Collection of Current Treaties, Agreements, and Conventions Concluded by the USSR with Foreign States.* (Issue XI). Moscow, pp. 82-83. (in Russian)

**7.** Popov, I. M. (Compiler). (1995). *Russian Archive: The Great Patriotic War.* (Vol. 15, 4-5). The Battle for Berlin (The Red Army in Defeated Germany): Documents and Materials. Institute of Military History of the Ministry of Defense of the Russian Federation, Central Archive of the Ministry of Defense of the Russian Federation, Moscow: TERRA, 616 pages. (in Russian)

**8.** Sidorov, A. A. (2014). The Bretton Woods Conference and the Construction of the Postponed World Order. *Bulletin of Moscow University. Series 25: International Relations and World Politics*, No. 4, pp. 140-184. (in Russian)

**9.** Ministry of Foreign Affairs of the USSR. (1979). *The Soviet Union at International Conferences During the Great Patriotic War. Vol. IV. The Yalta Conference of the Leaders of the Three Allied Powers - USSR, USA, and Great Britain (February 4-11, 1945): Collection of Documents.* Moscow: Politizdat, 338 pages. (in Russian)

**10.** Ministry of Foreign Affairs of the USSR. (1980). *The Soviet Union at International Conferences During the Great Patriotic War. Vol. V. The United Nations Conference in San Francisco (April 25-June 26, 1945): Collection of Documents.* Moscow: Politizdat, 722 pages. (in Russian)

**11.** Ministry of Foreign Affairs of the USSR. (1980). *The Soviet Union at International Conferences During the Great Patriotic War. Vol. VI. The Berlin (Potsdam) Conference of the Leaders of the Three Allied Powers - USSR, USA, and Great Britain (July 17-August 2, 1945): Collection of Documents.* Moscow: Politizdat, 551 pages. (in Russian)

**12.** Churchill, W. (1998). *The Second World War.* (Vol. 4). Alpina Publisher, pp. 218.-2636 pages. (in Russian)

**13.** Churchill, W. (1991). *The Second World War.* (Vol. 3). Moscow: Voenizdat, pp. 448-449. (in Russian)